# Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi Qəbələ rayonunda geniş qeyd olunur

***Yüz il bundan öncə vətənimizdə müsəlman şərqində ilk demokratik, dünyəvi dövlət–Azərbaycan Xalq Cümhuriyyəti qurulmuşdur. Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşasa da iqtisadi, sosial, mədəniyyət, təhsil və sair sahələri əhatə edən çox mühüm qanunlar qəbul etmişdir.***

***Ümumilli lider Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətini tariximizdə çox mühüm hadisə kimi qiymətləndirmiş, müasir Azərbaycan dövlətini onun varisi adlandırmışdır. Ölkə Prezidenti cənab İlham Əliyevin sərancamı ilə 2018-ci ili "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan olunmuşdur. Bu münasibətlə ölkəmizin hər yerində olduğu kimi rayonumuzda da rəngarəng tədbirlər keçirilir. Qəzetimizdə həmin yubiley tədbirləri haqqında məlumatları dərc edirik. Növbəti saylarımızda da bu mövzuda yazılar davam edəcəkdir.***

## Heydər Əliyev Mərkəzində

Heydər Əliyev Mərkəzində Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi



ilə bağlı tədbir keçirilib.

Tədbiri açan mərkəzin direktoru Zərxanım Ağayeva XX əsrin Azərbaycan xalqının həyatında çox böyük mübarizələr əsri olduğunu diqqətə çatdırıb. Zərxanım Ağayeva bildirib ki, Azərbaycan ikinci dəfə yenidən öz müstəqilliyini bərpa etsə də, müstəqil siyasət apara bilməyib, ölkədə baş alıb gedən özbaşınalıq müstəqilliyimizi təhlükə altına alıb. Belə bir məqamda ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlişi Azərbaycanı parçalanma, dağılma təhlükəsindən qurtarıb. Ulu öndərin hakimiyyəti dövründə Azərbaycan çox böyük uğurlara imza atıb və həmin siyasət bu gün ölkə rəhbəri İlham Əliyev tərəfindən ardıcıllıqla davam etdirilir.

Tədbir Zarağan 1 nömrəli orta məktəbin şagirdlərinin, uşaq və ailələrə dəstək mərkəzinin və incəsənət məktəbinin hazırladığı bədii proqramla davam edib.

**Kəmalə QASIMOVA**
**İlkin Vəlizadə (foto).**

## Şəhər 1 nömrəli məktəbdə

Qəbələ şəhər 1 nömrəli tam orta məktəbində Azərbaycan Xalq Cümhuriyyətinin yaranması-



nın 100 illiyi ilə əlaqədar yubiley tədbiri keçirilmişdir. Tədbir Aəzrbaycan Dövlət Himninin səsləndirilməsi ilə başlamışdır. Aparıcılar Azərbaycan Xalq Cümhuriyyətinin yarandığı tarixi şərait, cümhuriyyətin yaranması üçün fədakarlıq göstərən şəxsiyyətlər barədə geniş məlumat vermiş, Azərbaycan Xalq Cümhuriyyətinin 23 aylıq fəaliyyəti dövründə həyata keçirilən mühüm quruculuq işlərindən bəhs etmişlər.

Çıxış edənlər müstəqil Azərbaycan Respublikasının Azərbaycan Xalq Cümhuriyyətinin varisi olduğunu qeyd etmişlər. Onlar bildirmişlər ki, ulu öndər Heydər Əliyevin müdrik siyasəti nəticəsində Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin taleyini yaşamamış, müstəqilliyi daimi və sarsılmaz olmuşdur.

Məktəblilərin ifasında Vətənə, Dövlət Bayrağına həsr olunmuş şeirlər mahnılar səslənmişdir.

Rayon İcra Hakimiyyəti başçısının müavini Ətayə Osmanova Cümhuriyyətin 100 illiyi münasibətilə tədbir iştirakçılarını təbrik etmiş, bayram şənliyinin hazırlanmasında fəal iştiraklarına görə məktəbin pedoqoji kollektivinə və şagirdlərə təşəkkür etmişdir.

Bayram tədbirində rayon təhsil şöbəsinin müdiri Arifə Bayramova, şöbənin əməkdaşları, şəhər məktəblərinin rəhbərləri və müəllimləri iştirak etmişlər.

**"Qəbələ"**
**İlkin Vəlizadə (foto).**

## Gənclər və idman idarəsində

Gənclər və idman idarəsinin təşkilatçılığı və təhsil şöbəsinin iştirakı ilə şəhər 4 saylı tam orta şında tam orta məktəblərinin IX-XI sinif şagirdləri komanda şəklində iştirak etmişlər.



məktəbdə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr edilmiş bilik yarışının final mərhələsi keçirilmişdir. Bilik yarı-

Yarış Azərbaycan dili-ədəbiyyat, tarix, riyaziyyat-həndəsə, coğrafiya, fizika, biologiya, kimya fənləri üzrə keçirilmişdir.

Qaliblərin mükafatlanma mərasimində çıxış edənlər bildirmişlər ki, xalqımız Cümhuriyyətin istiqlalını dünyaya yaydığı 28 May gününü hər il təntənə ilə qeyd edir. Bu əlamətdar hadisənin dövlət səviyyəsində layiqincə qeyd edilməsi məqsədilə Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyev "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında" sərəncam imzalamışdır.

Toplanmış xalların nəticəsinə görə şəhər 3 nömrəli məktəbin komandası I yerə, şəhər 2 nömrəli məktəbin komandası II yerə və Zarağan kənd 1 nömrəli tam orta məktəbin komandası III yerə layiq görülmüşdür. Yarışın yekununda qalib gəlmiş və fərqlənmiş komandalara diplom, kubok və xatirə hədiyyələri təqdim olunmuşdur.

**"Qəbələ"**
**Səhrab Umuyev (foto).**

## Mərkəzi xəstəxanada

***Rayon mərkəzi xəstəxanasında Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibəti ilə tədbir keçitilmişdir. Tədbirdə çıxış edən xəstəxananın baş həkimi Sabir Bayramov Şərqdə ilk demokratik respublikanın yaranması barədə məlumat vermişdir.***



Tədbirdə baş həkimin müalicə işləri üzrə müavini Fikrət Cəfərov, baş həkimin müavini Cavanşir Məlikov, pediatriya şöbəsinin müdiri Saleh Aslanov, reanimotoloq Şəfəq Alməmmədova, travmatoloq Vaqif İsmayılov Azərbaycan Xalq Cümhuriyyətinin dövlətçiliyimizin tarixindəki böyük rolundan danışmışlar.

**"Qəbələ"**
**İlkin Vəlizadə (foto).**

## Müalicə diaqnostika mərkəzində

***Qəbələ Müalicə Diaqnostika Mərkəzində Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi ilə bağlı tədbir keçirilib.***

Tədbiri giriş sözü ilə açan mərkəzin baş həkimi Ceyhun Əhmədov Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinin keçirilməsi və 2018-ci ilin "Cümhuriyyət ili" elan olunması barədə Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamlarını xatırladıb. Çətin və ağır şəraitdə 1918-ci ilin mayın 28-də İstiqlal bəyannaməsinin imzalanmasına diqqət yönəldən Ceyhun Əhmədov 23 aylıq şanlı tarixdən söhbət açaraq milli ordu quruculuğunun, parlamentin, medianın, hüquqmühafizə sisteminin yaradılmasının, təhsildə aparılan milliləşmə proqramlarının dövlətçilik ənənələrində böyük önəm daşıgıdını diqqətə çatdırıb. Baş həkim qeyd edib ki, Azərbaycan Xalq Cümhuriyyəti qurucularının ruhu müstəqilliyimizin, istiqlalımızın qorunmasına, ölkəmizin beynəlxalq aləmin bərabərhüquqlu üzvü olmasına görə bu gün şaddır.



Sonra müalicə diaqnostika mərkəzinin həkimi Seymur Abdullayev, kadrlar şöbəsinin müdiri Mahir Kərimxanov və başqaları çıxış edərək Azərbaycan Xalq Cümhuriyyətinin tarixi barədə öz düşüncələrini söyləyib, müsəlman Şərqində qurulan ilk demokratik dövlətin keçdiyi yola nəzər salıblar.

Tədbiri Ceyhun Əhmədov yekunlaşdırıb.

**"Qəbələ"**
**Səfa Aslanov (foto).**